# Şuşa oğlunu intiqama çağırmışdı...

**Böyük qalibiyyətlə bitən Vətən müharibəsində tarix yazan qəhrəman Ordumuz, əsgər və zabitlərimiz Azərbaycanın haqq uğrunda mübarizə aparmaq əzmini, əsl döyüş ruhunu bütün dünyaya nümayiş etdirdi. Qələbəyə öz qanları ilə imza atan şəhidlərimiz bizlərə ömür boyu haqqında danışacağımız bir dastan qoyub getdilər. 44 günlük müqəddəs savaş dövlətimizin və xalqımızın iftixar ünvanına çevrildi. Azərbaycan, sadəcə, torpaqlarımızın işğaldan azad olunması ilə kifayətlənmədi, eyni zamanda xalqımız öz varlığını, həmrəyliyini bütün dünyaya nümayiş etdirdi. Çox böyük qürur hissi keçiririk ki, əzəli, qədim Azərbaycan torpaqlarına, Qarabağa qayıtdıq.**

Əsrlər boyu müharibə Yer üzünün ən böyük fəlakəti sayılıb. Milyonlarla insan müharibələrdə canından keçib. "Təki Vətən sağ olsun!" deyən şəhid valideynləri bayrağı bağrına basaraq hönkürsələr də, gözlərində məğrurluq, fəxarət hiss olunub. İgid, qorxmaz qəhrəmanlarımızdan biri də Vətən müharibəsi savaşında şəhid olan Nurlan Həsənovdur.

Nurlan 1991-ci il mayın 19-da Şuşa şəhərində anadan olub. O, ailənin ilk övladı idi. Ailə I Qarabağ müharibəsindən sonra öz doğma torpaqlarından didərgin düşüb və məcburi köçkün kimi Bakıda məskunlaşıb.

1997-ci ildə Bakıda Şuşa şəhər 3 nömrəli tam orta məktəbə daxil olub, 2008-ci ildə əla qiymətlərlə başa vurub. 2008-2012-ci illərdə Azərbaycan Texnologiya Universitetinin "İnzibati idarəetmə" ixtisası üzrə təhsil alıb. Nurlan vətənpərvərliyi, mərdliyi, kişi xarakteri ilə çoxlarından fərqlənirdi. 2012-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin Naxçıvan şəhərində yerləşən "N" saylı hərbi hissəsində həqiqi hərbi xidmətdə olub. Daha sonra leytenant kimi Gəncədə "N" saylı hərbi hissədə xidmət edib və 2014-cü ildə ehtiyatda olan zabit kimi təxris olunub.

Və nəhayət, Nurlan da minlərlə cəsur oğullarımız kimi 2020-ci il sentyabrın 21-də könüllü olaraq təlimlərə qoşulub. Azərbaycan Ordusunun leytenantı olan Nurlan sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və ərazi bütövlüyümüzün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayıl və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Nurlan Həsənov oktyabrın 1-də Füzuli döyüşləri zamanı şəhid olub. Biləcəri qəsəbəsində dəfn edilib.





Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatıldığı və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamlarına əsasən Nurlan Həsənov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Cəsur döyüşçü", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

Füzuli və Cəbrayıl istiqamətində döyüşlərdə fəal iştirak edən Nurlan "Ana, məndən narahat olmayın, burada hər şey yaxşıdır, Şuşanı almağa gəlmişəm", – deyibmiş.

Həqiqət xanım qürurla deyir: "Oğlum yenidən orduya gedəndə istər-istəməz bir ana kimi narahatlıq keçirirdim. Nurlan dedi ki, ana, Şuşaya qayıtmaq istəmirdin? Mən səni Şuşaya qaytaracağam, onu azad edəcəyəm. Mən Şuşaya oğlumla getmək, qayıtmaq istəyirdim. Amma təəssüf ki, bu, mənə qismət olmadı… Onun bir qızı və bir oğlu bizə yadigar qalıb.

Azərbaycan Vətən müharibəsində şanlı qələbə qazanmaqla ərazi bütövlüyünü tam bərpa edib. Qarabağımızda üçrəngli Azərbaycan bayrağı vüqarla dalğalanır. Köç karvanları da müqəddəs torpaqlara isti nəfəs gətirir. Nurlanın ruhu isə şəhid olduğu azad Qarabağ torpaqlarında dolaşır.

***M.MÜŞFİQ***
***XQ***